Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.

Heydər ƏLİYEV



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 23 yanvar 2016-cı il № 6 (2021) Qiyməti 25 qəpik

# Azərbaycan Prezidenti İlham Əliyev şəhidlərin əziz xatirəsini yad edib

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva yanvarın 20-də - Ümumxalq Hüzn Günündə Şəhidlər xiyabanında 20 Yanvar şəhidlərinin xatirəsini yad ediblər.***



Qanlı Yanvar hadisələrindən 26 il keçir. 1990-cı il yanvarın 20-də ölkəmizə qarşı ərazi iddiaları irəli sürən Ermənistanın təcavüzkarlığından və keçmiş SSRİ rəhbərliyinin onlara havadarlığından hiddətlənən, Bakının küçə və meydanlarına çıxaraq buna qəti etirazını bildirən xalq kütlələrinə qarşı Sovet ordusunun döyüş hissələrinin yeridilməsi Azərbaycanda misli görünməyən faciəyə səbəb oldu. Milli azadlığı, ölkəsinin ərazi bütövlüyü uğrunda mübarizəyə qalxan dinc əhaliyə divan tutulması, kütləvi terror nəticəsində yüzlərlə günahsız insanın qətlə yetirilməsi və yaralanması totalitar Sovet rejiminin süqutu ərəfəsində onun cinayətkar mahiyyətini bütün dünyaya bir daha nümayiş etdirdi. Keçmiş Sovet dövlətinin hərb maşınının həmin gün Azərbaycan xalqına qarşı həyata keçirdiyi vəhşi terror aktı insanlıq əleyhinə törədilən ən ağır cinayətlərdən biri kimi bəşər tarixinə yazıldı. Böyük itkilər, günahsız insanların qətli ilə nəticələnən 20 Yanvar faciəsi, mərkəzi hakimiyyət başda olmaqla, cinayətkar imperiya rəhbərliyinin Azərbaycana qarşı xəyanətkar siyasətinə dözməyən, azadlığına, müstəqilliyinə can atan Azərbaycan xalqının həm də mübarizliyini, əyilməzliyini və məğrurluğunu nümayiş etdirdi.

20 Yanvar Azərbaycan xalqının tarixində sadəcə ağrı və acı ilə xatırlanacaq gün deyil. 20 Yanvar Azərbaycan xalqının şan və şərəf günüdür. Xalq həmin gün üstünə şığıyan dəhşətli kabusa, Sovet hərbçilərinin qorxunc qaragüruhuna qarşı sinəsini sipər etməyi, özünün mənliyini və mətinliyini nümayiş etdirməyi bacardı. Məhz həmin hadisələr bilavasitə nümayiş etdirdi ki, Azərbaycan xalqı pozulan hüquqlarının, suverenliyinin bərpa olunması uğrunda savaşmaq əzminə sahibdir.

Təəssüf ki, həm SSRİ, həm də o vaxtkı Azərbaycan rəhbərliyi bu qanlı cinayətin bilavasitə təşkilatçıları və iştirakçıları olduqlarından nəinki onun açılması və cinayətkarların məsuliyyətə cəlb olunmasından ötrü tədbirlər görmədi, əksinə, bu vəhşiliyi gizlətmək üçün əllərindən gələni etdilər. 20 Yanvar faciəsindən bir gün sonra ulu öndər Heydər Əliyevin Azərbaycanın Moskvadakı səfirliyinə gedərək xalqımızın kədərini bölüşməsi və qırmızı rejimin ölkəmizdə həyata keçirdiyi qanlı aksiyanı ifşa etməsi o dövrdə xalqımıza bir dayaq, bir təsəlli oldu. Xalq o ağır günlərdə köməksiz olmadığını hiss etdi.

Uzun illər Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifələrində işləyən, Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunun üzvü olan, SSRİ rəhbərliyinin qəzəbinə tuş gələrək təqaüdə göndərilən Heydər Əliyev yenə də bütün məhrumiyyətlərə baxmayaraq o ağır günlərdə xalqının sırasında, onunla birgə, həmrəy oldu.

Heydər Əliyev bəyanatı ilə əslində Azərbaycanda gedən proseslərə qiymət verdi. Ulu öndər SSRİ rəhbərliyinin Azərbaycana münasibətdə qətiyyən xoşniyyətli davranmadığını diqqətə çatdırmaqla yanaşı, həm də hakimiyyəti onda qınadı ki, Azərbaycana siyasi savadı olmayan, kölə xislətli insanın rəhbər təyin edilməsi xalqla hakimiyyət arasında dərin uçurumun yaranmasına səbəb olmuşdu. Bu uçurumun yaradılması da ilk növbədə mərkəzi hakimiyyətin maraqlarına xidmət edirdi və bununla belə gələcəkdə yaranacaq bütün problemlərin, konkret desək, 20 Yanvar faciəsinin baş verməsinə səbəb olmuşdu.

Bir müddət sonra - 1990-cı il noyabrın 21-də ümummilli lider Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi bu hadisəyə siyasi-hüquqi qiymət verdi. Bu tarixi sənəddə Azərbaycan xalqına qarşı törədilən siyasi və hərbi qəsdin cavabdehləri və günahkarları açıqlandı. Sovet hakimiyyətinin süqutundan və Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsindən sonra bir müddət başları hakimiyyət uğrunda mübarizəyə qarışan Azərbaycan rəhbərləri xalqımıza qarşı törədilən bu ağır cinayətin səbəblərinin araşdırılması, ona siyasi-hüquqi qiymət verilməsi və cinayətkarların müəyyən edilməsi istiqamətində heç bir iş aparmadılar. Yalnız ümummilli lider Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından sonra - 1994-cü ildə 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verildi və cinayəti törədənlərin adları ictimaiyyətə çatdırıldı.

Azərbaycanın azadlığı uğrunda canlarından keçən şəhidlərin xatirəsi daim əziz tutulduğu kimi, onların ailə üzvləri, doğmaları da hər zaman dövlət qayğısı ilə əhatə olunub. Eləcə də 20 Yanvar hadisələrində sağlamlığını itirən əlillərin sosial müdafiəsi, pensiya təminatı həmişə dövlətimizin başçısının diqqətindədir. 20 Yanvar şəhidlərinin ailə üzvləri və əlillərin sosial müdafiəsinin təmin olunması istiqamətində mütəmadi tədbirlər həyata keçirilir. Şəhid ailələrinin pensiya təminatı, mənzil şəraitinin yaxşılaşdırılması, yaşayış səviyyəsinin yüksəldilməsi ilə bağlı mükəmməl qanunvericilik bazası yaradılıb. Dövlətimizin başçısı bu istiqamətdə sərəncamlar və fərmanlar verib. Bundan başqa əlillərin reabilitasiyası üçün respublikada yeni sağlamlıq mərkəzləri inşa olunub. Ötən il əlil və şəhid ailələrinə yeni mənzillər verilib ki, onların arasında 20 Yanvar əlilləri və şəhidlərinin ailələri də var. 20 Yanvar faciəsində şəhid olan şəxslərin ailələrinə Prezident təqaüdü verilir. Şəhid ailələrinin, əlillərin sosial təminatı ildən-ilə daha da möhkəmləndirilir.

* * *

Yanvarın 20-də səhər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Qanlı Yanvar faciəsində həlak olanların əziz xatirəsini yad etmək üçün Şəhidlər xiyabanına gəldilər.

Dövlətimizin başçısı "Əbədi məşəl" abidəsinin önünə əklil qoydu.

Müdafiə Nazirliyinin əlahiddə nümunəvi hərbi orkestrinin ifasında Azərbaycanın Dövlət himni səsləndi.

* * *

Dövlət və hökumət rəsmiləri, respublikamızdakı dini icmaların başçıları, xarici ölkələrin Azərbaycandakı səfirləri, beynəlxalq təşkilatların nümayəndələri də şəhidlərin əziz xatirəsini yad etməyə gəlmişdilər.

* * *

Şəhidlər xiyabanının ziyarət olunması mərasimində Baş nazir Artur Rasizadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev iştirak edirdilər.

**AZƏRTAC**

## "Reuters" Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda iqtisadiyyatı dəstəkləmək üçün görülən işlərdən yazır

***Britaniyada fəaliyyət göstərən "Reuters UK" xəbər agentliyində beynəlxalq maliyyə böhranı fonunda Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkədə iqtisadiyyatı dəstəkləmək üçün görülən genişmiqyaslı işlərdən bəhs edən məqalə verilib.***

Məqalədə bildirilir ki, Prezident İlham Əliyevin yanında iqtisadi və sosial məsələlərin həlli ilə bağlı müşavirədə dövlət başçısı valyutaya, manatın məzənnəsinə və dövlət aktivlərinə nəzarət, bankların dirçəlişinə dəstək və başqa mövzularda ciddi tapşırıqlar verib. Dövlət başçısı Milli Məclisin növbədənkənar iclasında valyuta bazarındakı qaydaların gücləndirilməsi ilə bağlı hökumətin təkliflərinin müzakirə olunmasının vacib olduğunu vurğulayıb. Həmin iclasın gündəliyinə əmanətlərin sığortalanması, vergi və bank konsolidasiyası məsələləri də daxil edilməlidir. Prezident İlham Əliyev bildirib ki, biznes mühitini yaxşılaşdırmaq və iqtisadi canlanmanı sürətləndirmək üçün mütləq geniş özəlləşdirmə proqramı həyata keçirilməlidir.

Müəllif Prezident İlham Əliyevin ölkədə əməkhaqlarının artırılması ilə bağlı sərəncamını nümunə kimi göstərib.

**AZƏRTAC**

## "Azərbaycan haqq mövqeyini sona qədər müdafiə etməyə qadirdir"

***Azərbaycan-ABŞ münasibətləri müstəqillik illərimizdə uğurlu və zəngin yol keçib, əməkdaşlıq əlaqələri həmişə əhəmiyyətini saxlayıb.***

Azərbaycan Respublikası Prezidenti Administrasiyası rəhbərinin müavini, xarici əlaqələr şöbəsinin müdiri Novruz Məmmədov bu sözləri mətbuata müsahibəsində bildirib. Prezident Administrasiyasının rəsmisi deyib ki, bu münasibətlər təsadüfi maraqlar üzərində qurulmayıb. Azərbaycan postsovet məkanında Birləşmiş Ştatlar və Avropa ölkələri ilə uğurlu əməkdaşlıq edən bir dövlətdir. Bu münasibətlərin əsasını ümummilli lider Heydər Əliyev qoyub və indi Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Əlbəttə, qarşılıqlı sıx əlaqələr olan yerdə problemlər də olur. Bu gün dünyada, xüsusilə, XXI əsrin ilk onilliklərində bütün dövlətlərin rəhbərləri çalışırlar ki, özlərinin dövlətçilik və milli maraqlarını maksimum müdafiə etsinlər. Bu halda dövlətlər arasında müxtəlif problemlər yarana bilər. Odur ki, münasibətlərin belə xarakter alması təbii və məntiqidir. Çünki Azərbaycan Prezidentinin də əsas vəzifəsi milli maraqlarımızın qorunması və müdafiə edilməsidir.

Prezident Administrasiyası rəhbərinin müavini deyib: "Mən həmişə qeyd etmişəm ki, Azərbaycan xalqı müstəqillik illərində uğurlu dövlətçilik yolu keçib. Azərbaycan Prezidenti bu yolu uğurla davam etdirir. Dövlətimizin başçısı bunu xalqa arxalanaraq edir. Bu, bizim hamımızın vəzifəsidir. Əlbəttə, dövlətlər arasında müəyyən zamanlarda müəyyən problemlər olur. Bu halda hər hansı bir təkid, hər hansı bir mövqe göstərməyə ehtiyac yaranır. Biz haqqımızı, ədalətli yanaşmanı tələb edirik. Bu gün dünyada hər bir dövlət öz maraqları üçün açıq-aydın mübarizəyə qalxıb. Bizim milli dövlətçilik maraqlarımızın təmin olunmasının əsas amillərindən biri də pozulmuş ərazi bütövlüyümüzün bərpasıdır".

Dünyada oxşar hadisələrin baş verdiyini vurğulayan Novruz Məmmədov qeyd edib ki, Azərbaycan haqq mövqeyini sona qədər müdafiə etməyə qadirdir. Prezident İlham Əliyev və ABŞ Milli Təhlükəsizlik Şurasının Avropa üzrə baş direktoru Çarlz Kapça arasında görüşə diqqət çəkən Prezident Administrasiyasının rəhbərinin müavini görüşdə qarşılıqlı anlaşma istiqamətində mühüm addımların atıldığını bildirib. Bu səfərin ilin əvvəlində baş tutmasının çox böyük rəmzi mənası və mesaj xarakteri var. Bu o deməkdir ki, ABŞ Azərbaycan ilə əlaqələrinə həmişə çox böyük əhəmiyyət verir, bu əməkdaşlığın daha da genişlənməsinə və möhkəmlənməsinə diqqət yetirir. Azərbaycan tərəfi də bu ölkə ilə əlaqələrinin inkişafını daim diqqət mərkəzində saxlayır. Azərbaycan Prezidenti öz çıxışlarında bunu həmişə bəyan edir. Biz ABŞ və Avropa İttifaqı ilə əlaqələrimizi təsadüfən seçməmişik. Bu, düşünülmüş bir seçimdir. Biz bu yolu uğurla davam etdirmək istəyirik.

Azərbaycanın ABŞ üçün həmişə mühüm, vacib və böyük əhəmiyyət daşıyan tərəfdaş olduğunu deyən Novruz Məmmədov Prezident İlham Əliyevin Prezident Barak Obama tərəfindən Vaşinqtonda keçiriləcək dördüncü Nüvə Sammitinə dəvət olunmasına da münasibət bildirib. Dəvət məktubunun məzmunu bundan ibarətdir ki, Azərbaycan başqa sahələrdə olduğu kimi, nüvə təhlükəsizliyi sahəsində də dünyada çox fəal mövqe tutur, bu işə çox böyük töhfələr verir. ABŞ Prezidenti məktubunda bunu təqdirəlayiq bir hal hesab edir.

"Əsrin müqaviləsi"nin imzalanmasından tutmuş enerji xətlərinin şaxələndirilməsinə qədər ABŞ-ın Azərbaycana böyük dəstəyi olduğunu vurğulayan Prezident Administrasiyası rəhbərinin müavini iki ölkə arasında terrorizmə qarşı mübarizə sahəsində də çox uğurlu əməkdaşlıq aparıldığını qeyd edib. Azərbaycanın müxtəlif yerlərdə sülhyaratma missiyalarına qoşulduğunu və bu gün Əfqanıstanda həmin missiyanın davam etdirildiyini diqqətə çatdırıb. "Azərbaycan elə regionda yerləşir ki, həmişə strateji əhəmiyyət daşıyan dövlət olaraq qalacaq",- deyən Novruz Məmmədov vurğulayıb ki, ölkəmiz bu əməkdaşlığın bərabərhüquqlu, qarşılıqlı faydalı olmasını istəyir və buna nail olur. Bu əlaqələrin bundan sonra da inkişaf etdirilməsinə gəlincə, bunun üçün qarşılıqlı inam və istək var.

**AZƏRTAC**




# Azadlıq uğrunda mübarizənin şanlı səhifəsi

## Müdafiə Nazirliyinin şəxsi heyəti Şəhidlər xiyabanını ziyarət edib

***Azərbaycanın tarixinə əbədi həkk olunmuş 20 Yanvar faciəsindən söz düşəndə həmişə bu günü haqlı olaraq xalqımızın tarixində şanlı və qanlı səhifə adlandırırlar. 20 Yanvar hadisələri əslində Azərbaycan cəmiyyətinin müstəqillik uğrunda mübarizəsinin, irticaçı qüvvələrə qəzəb və nifrətinin ifadəsidir.***

Aradan 100 illər ötüb keçəcək, saysız-hesabsız kitablar yazılacaq, araşdırmalar aparılacaq və hələ indiyədək açılmamış bir sıra qaranlıq məqamlara aydınlıq gətiriləcək. İllər, qərinələr keçdikcə vətəndaşlarımıza qarşı keçmiş Sovetlər Birliyinin icazəsi və birbaşa göstərişilə törədilmiş təxribatlar zamanın mühakiməsində ədalətli qiymətini alacaq. Bütün bunların Azərbaycan xalqına qarşı amansız cəza aktı olduğu birmənalı olaraq lənətlənəcək.

Qanlı Şənbə gecəsində paytaxtımıza, digər şəhər və kəndlərimizə soxulmuş Kremlin cəza dəstələrinin dəhşətli əməllərinə respublikamızda həqiqi qiymət ümummilli lider Heydər Əliyev tərəfindən verilib. "Azərbaycanın ərazi bütövlüyünün pozulması cəhdlərinə, keçmiş SSRİ rəhbərliyinin Azərbaycan xalqına qarşı apardığı ədalətsiz və qərəzli siyasətə, yerli rəhbərliyin yarıtmaz fəaliyyətinə etiraz əlaməti olaraq küçələrə çıxmış dinc əhaliyə divan tutmaq məqsədilə Bakıya və respublikanın bir neçə rayonuna qanunsuz olaraq Sovet qoşun hissələri yeridildi. Görünməmiş qəddarlıqla həyata keçirilən cəza tədbirləri nəticəsində Azərbaycanın yüzlərlə günahsız vətəndaşı yaralandı və qətlə yetirildi. Bununla Azərbaycan xalqına qarşı kütləvi terror aktı həyata keçirildi".

Onun bu məşhur çıxışı 20 Yanvar həqiqətlərinin süni yaradılmış informasiya boşluğunu yararaq dünyaya yayılmasında mühüm rol oynadı.



Yüzdən artıq insanın xüsusi amansızlıqla qətlə yetirildiyi və itkin düşdüyü, yüzlərlə soydaşımızın isə yaralandığı həmin gecədə Şimali Qafqazdan toplanmış rezervistlərin, onların arasında xalqımıza xüsusilə kin bəsləyən ermənilər də az deyildi, daxil olduğu Sovet qoşunları quldur dəstələri kimi müttəfiq respublikanın paytaxtına soxulmuş, uşaq-böyük demədən qarşısına çıxan günahsız insanları atəşə məruz qoymuşdular. Məşhur kinorejissor Stanislav Qovoruxin haqlı olaraq o zaman bu quldurları Voroşilov atıcıları adlandırmışdı. Ağır döyüş texnikası, tanklar və PDM-lər şəhərin küçələrindəki avtomobil və hətta təcili tibbi yardım maşınlarının insanlarla birlikdə üstündən keçərək vəhşicəsinə əzmiş, öldürmüşdülər.

Dağılmaqda olan və bütün dünyada şər imperiyası kimi ad çıxarmış Sovet İttifaqı rəhbərliyinin bilavasitə "xeyir-duası" ilə qızışmış Dağlıq Qarabağ münaqişəsinə haqlı etiraz edən əhaliyə qarşı qanlı aksiya törətməklə Qorbaçov və onun əksəriyyəti erməni olan əlaltıları əslində azadlıq uğrunda mübarizəyə qalxmış digər müttəfiq respublikalara görk etmək, "qulaqburması" vermək istəyirdi.

Mixail Qorbaçov yanvarın 20-də saat 00:00-dan etibarən "Bakı şəhərində fövqəladə vəziyyət tətbiq edilməsi haqqında" fərman imzalamaqla İttifaq Konstitusiyasının 119-cu, Azərbaycan SSR Konstitusiyasının 71-ci maddələrini kobud şəkildə pozmuşdu.

Cəza dəstələri məlumatsızlıq mühiti yaratmaq üçün öncə respublika televiziyasının enerji blokunu partlatmışdılar ki, Bakıda fövqəladə vəziyyət elan edilməsi və qoşunların şəhərə girməsi barədə əhaliyə rəsmi məlumat çatdırılmasın. Fövqəladə vəziyyətin həmin gün saat 00:00-da qüvvəyə minməsinə baxmayaraq, qoşun hissələri üç saat əvvəldən - artıq yanvarın 19-da saat 21-dən etibarən şəhərdə qırğın törətməyə başlamışdılar. Bütün bunlar göstərirdi ki, Sovet rəhbərliyinin məqsədi məhz azərbaycanlıları qanına qəltan etmək olmuşdu.

Şəhər sakinlərinin cəzalandırılmasına isə SSRİ-nin müdafiə naziri Dmitri Yazov, daxili işlər naziri Vadim Bakatin, DTK sədrinin müavini Filip Babkov bilavasitə rəhbərlik etmişdilər.

Mahiyyətcə bu, can üstündə olan ölünün aqoniyasına bənzəyirdi. Sonrakı hadisələr də göstərdi ki, "öz" əhalisinə qarşı ağır döyüş texnikasından və ordu birləşmələrindən istifadə etməklə cəza aksiyası keçirən bir rejim, doğrudan da, tarix səhnəsindən silinməyə məhkumdur.

Bakıda və doğma respublikamızın digər bölgələrində Qanlı 20 Yanvar gecəsində canlarından keçmiş Vətən övladlarının azadlıq mücadiləsi öz layiqli bəhrəsini verdi. Azərbaycan tarixi müstəqilliyinə qovuşdu və bu gün regionumuzun ən önəmli dövlətlərindən birinə çevrildi.

Hər il olduğu kimi, bu il də Müdafiə Nazirliyinin rəhbərliyi və şəxsi heyəti 20 Yanvar Ümumxalq Hüzn Günü ilə əlaqədar Şəhidlər xiyabanını ziyarət edib. Hərbi qulluqçular Vətənin azadlığı, müstəqilliyi uğrunda şəhid olmuş vətəndaşlarımızın məzarları üzərinə gül dəstələri qoyublar.

**"Azərbaycan Ordusu"**

# Silahlı Qüvvələrin Baş Qərargah rəisi NATO-da keçirilən görüşdə iştirak edib



Yanvarın 21-də Azərbaycan Respublikasının Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov NATO-nun Brüssel şəhərindəki mənzil-qərargahında Şimali Atlantika Alyansının Hərbi Komitəsinin "Qətiyyətli dəstək" missiyasına töhfə verən qeyri-NATO ölkələri ilə Baş Qərargah rəisləri səviyyəsində keçirilən görüşündə iştirak edib.

Baş Qərargah rəisi səfər zamanı NATO-nun Hərbi Komitəsinin sədri general Petr Pavellə, o cümlədən Gürcüstan, Ukrayna və Xorvatiyanın Silahlı Qüvvələrinin Baş Qərargah rəisləri ilə görüşlər keçirib.



**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Erməni tərəfinin növbəti saxtakarlığı

Ermənistanın Müdafiə Nazirliyinin rəsmi nümayəndəsinin 2015-ci il ərzində silahlı qüvvələrin ümumilikdə guya 57 nəfər itki vermələri ilə bağlı yaydığı xəbər qeyri-ciddi və saxtadır. Belə ki, bu rəqəmlər erməni tərəfinin il ərzində verdiyi rəsmi xəbərlərlə tamamilə üst-üstə düşmür.

Yalnız erməni mətbuatından götürülən məlumatlara əsasən, düşmən tərəfi 2015-ci ildə ölü olaraq 83 nəfər, yaralı olaraq isə 100 nəfərdən çox itki verib.

Dağlıq Qarabağdan orduya çağırılanlar, məcburi surətdə silahlandırılıb səngərlərə yerləşdirilən mülki əhali və qaynar nöqtələrdən gətirilən muzdlular arasındakı itkilər də statistik məlumatlar hazırlanarkən nəzərə alınmalıdır.

Erməni ictimaiyyətindən gizlədilən, müxtəlif mənbələrdən, o cümlədən elə düşmənin daxilindən əldə edilən məlumatlardakı rəqəmləri də hesablasaq erməni xalqı üçün dəhşətli bir rəqəm alınır. Hətta təqribi hesablamalara əsasən, düşmən tərəfinin 2015-ci ildə verdiyi itki 276 nəfərdən çoxdur.

2016-cı ilə də düşmən tərəfi itkilərlə başlayıb. Ermənilər döyüş itkilərinin gizlədilməsi, hadisə və cinayətlərin ört-basdır edilməsi barədə çox ciddi tapşırıqlar verir və bu istiqamətdə tədbirlər göməyə çalışırlar.

Bu il yanvarın 19-da baş verən, lakin düşmən tərəfindən gizlədilən, əldə etdiyimiz yalnız bir faktı təqdim edirik. Belə ki, həmin gün saat 17.20-də Ermənistan silahlı qüvvələrinin əsgəri, 2014-cü ildə hərbi xidmətə çağırılmış, artilleriya divizionunun hərbi qulluqçusu Avetisyan Edqar Vartaninin silahla ehtiyatsız davranması nəticəsində, sağ qolunun alt nahiyəsindən yaralandığı üçün onun hospitala yerləşdirilməsi və hadisənin ört-basdır edilməsi barədə komandirlərə qəti tapşırıq verilib.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***22 yanvar 2016-cı il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 114 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı kəndində, Berd rayonunun Mosesqex kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Talış, Gülüstan, Tərtər rayonunun Çiləbürt, Yarımca, Ağdam rayonunun Şıxlar, Cəvahirli, Sarıcalı, Kəngərli, Yusifcanlı, Mərzili, Qaraqaşlı, Novruzlu, Şuraabad, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Qorqan, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Azərbaycan Silahlı Qüvvələri əməliyyat şəraitini nəzərə alaraq düşmənin atəş nöqtələrinə, mövqelərinə və səngərlərinə 114 dəfə atəş zərbəsi endirib.

*Gənc zabitlərimiz*

# Vətəni qorumaq peşəsi

***Böyük öndərimiz Heydər Əliyev müstəqilliyimizin və ərazi bütövlüyümüzün qorunmasında Azərbaycan gənclərinin rolunu yüksək qiymətləndirərək qeyd edirdi ki, müasir dövrümüzün gənc nəsli xoşbəxtdir, çünki onlara müstəqil Vətəndə yaşamaq nəsib olub. Buna görə də dahi rəhbər gənclərin əsas vəzifəsinin müstəqilliyimizin keşiyində dayanmaq olduğunu tövsiyə edirdi.***

Hələ keçmiş Sovetlər dönəmində dahi rəhbərin tövsiyəsi ilə yüzlərlə azərbaycanlı hərbi təhsil almaq üçün ittifaqın müxtəlif bölgələrinə gedirdi. Amma ümummilli liderin rəhbərliyi və təşkilatçılığı ilə müstəqillik dövründə formalaşan hərbi təhsil sistemi gənclərimizə zabit sənətini seçməkdə möhkəm zəmin yaratdı. İndi hər il gənclərimiz bu məktəblərdə müasir səviyyədə təhsil alaraq hərbi peşələrin sirlərinə yiyələnirlər. Cəbhə bölgələrinə ezamiyyətlərimiz zamanı ömrünü Vətəni qorumaq peşəsinə həsr etmiş belə gənclərlə tanış oluruq. Əslində başqa peşələrdən fərqli olaraq hərbə xas olan özəlliklər, yəni bu sahənin çətinlikləri yalnız yüksək vətənpərvərlik hisslərinə malik olan şəxslərin bu peşələri seçməsinə səbəb olur.

Cəbhə xəttindən ezamiyyətdən qayıdan əməkdaşımız gənc bir zabit haqqında oçerk hazırlamışdı. Bu yazı qəzetimizdə dərc olunduqdan bir neçə ay sonra həmin hərbi hissəyə yolum düşdü və həmkarımın haqqında həvəslə danışdığı, "ondan gələcəkdə səriştəli, vətənpərvər komandir olacaq", - dediyi leytenantla görüşdüm. Qonşu kəndimizdən olduğunu öyrəndim, babasını yaxşı tanıyırdım, rəhmətlik Qələmmirzə dayı Böyük Vətən müharibəsində iştirak etmişdi. Zabitin adı Xalid idi. Onunla söhbətimiz uzun çəkdi. Xidmətdən sonra qatarın gəlmə vaxtına qədər mənə imkan yarandı ki, gənc zabiti yaxından tanıyım. Öyrəndim ki, Xalid test imtahanlarında yüksək bal toplayaraq hərbi məktəbə daxil olub. O vaxt qohumları elə bilirmiş ki, belə yüksək bal toplayan gənc ölkənin nüfuzlu universitetlərindən birinə daxil olacaq. Xalidin özünün də etiraf etdiyi kimi, valideynləri onu ya həkim, ya da gələcəyin prokuroru, hakimi görmək istəyirmiş. Amma o, babasının öyüd-nəsihətiylə böyüdüyü üçün Vətəni qorumaq peşəsini seçir və zabit olmağı qarşısına məqsəd qoyur. Əziz oxucu, bir vaxt babasından vətənpərvərlik dərsi almış həmin zabit indi Silahlı Qüvvələrimizin sıralarında kifayət qədər nüfuzlu bir vəzifədə xidmətini davam etdirir.



Bu yazımda isə ötən həftə cəbhə xəttində tanış olduğum bacarıqlı bir zabit - bölük komandiri baş leytenant Ülvi Hüseynov barəsində söhbət açacağam. Hərbi hissənin qərargahında yüksək rütbəli zabitlərdən biri Ülvinin komandiri olduğu bölüyə gedəcəyimi biləndə "Gənc olmasına baxmayaraq çox təcrübəli zabitdir", - demişdi. Adətən yazılarımda da əkinçilərin dilindən eşitdiyim bir ifadəyə istinad etməyi xoşlayıram. Deyirlər ki, pis torpaq yoxdur, pis əkinçi var. Yaxşı deyimdir, böyük mənası var bu sözlərin. Əslində orduda da əsgərlərin vətənpərvər döyüşçü kimi formalaşmasında komandirin rolu danılmazdır. Hansı bölmədə təcrübəli əsgərlərlə tanış oluramsa, əkinçilərin sözünü xatırlayıram. Doğrudan da, əsl komandirin tabeliyində daim bacarıqlı əsgərlər yetişir.

Baş leytenant Ülvi Hüseynovla söhbətimdən öyrənirəm ki, onu müqəddəs peşəyə bağlayan əsas səbəb Vətənimizə olan tükənməz övlad sevgisidir.

- Əlbəttə, zabit olmaq üçün hər şeydən əvvəl üzərində boy atıb böyüdüyün Vətənə qırılmaz tellərlə bağlılığın olmalıdır, - deyir gənc zabit. - Orta məktəbi yaxşı qiymətlərlə oxumuşam, seçimdə də müstəqil olmuşam, yəni hərbçi peşəsini öz istəyimlə seçmişəm. Yeniyetmə vaxtlarımda da düşünürdüm ki, zabit qəhrəmanlıq, vətənpərvərlik peşəsidir. Ətrafımda səliqəli, şux görkəmdə olan zabitləri görəndə həsəd aparar, "mütləq zabit olacağam" deyərdim.

Yuxarıda qeyd etdiyim ki, həmişə güclü komandir seçimimdə onun əsgərlərinin hazırlığına önəm vermişəm. Budur, haqqında danışdığım bölük komandirinin tabeliyindəki əsgərlərlə görüşürəm. Deyərdim ki, hər birinin məğrurluğu üzlərində ifadə olunub, qorxmaz, mətin oğullardır. Təklikdə söhbət edirəm, döyüş növbətçisi olduqları ilk anlara qədər əsgər ömürlərində ötüb-keçənlərdən, yaddaşlarında şirin xatirəyə dönən epizodlardan danışırlar. Və daim onlara dayaq olan sevimli komandirlərinin, xüsusən də yazımın qəhrəmanı - baş leytenant Ülvi Hüseynovun adını tez-tez misal çəkirlər. Onu bir komandir kimi tanıdan, təsdiqləyən xüsusiyyətləri soruşanda tələbkar, intizamlı, qayğıkeş və ən başlıcası yetərincə vətənpərvər zabit olduğunu bildirirlər. Əsgərlərinin ürəyində əsl komandir sevgisini qazandığı üçün gənc zabitə həsəd aparıram. Və bu yerdə Müdafiə naziri general-polkovnik Zakir Həsənovun xüsusi təyinatlı təhsil müəssisələrinin ötənilki məzunları ilə görüşü zamanı dediyi sözləri xatırlayıram: "Mən arzu edərdim ki, Azərbaycan zabiti mənəvi dəyərlərə - Vətənə, xalqa və dövlətə sədaqəti, həmçinin yüksək hərbi savadı və davranışı ilə daim hərbi kollektivdə şəxsi nümunə olmağı bacarsın", - deyən nazirimiz gələcəyin zabitlərinə öz tövsiyələrini vermişdi.

İnanıram ki, bacarıqlı zabiti hələ qarşıda nə qədər uğurlar, zirvələr gözləyir. Cəbhə xəttində, düşmənin beş-on addımlığında vəzifə borcunu layiqincə yerinə yetirən, ən əsası tabeliyindəki kollektivin inamını qazanmış gənc zabitin gələcəyin sınaqlarından da alnıaçıq çıxacağına şübhə ola bilməz.

**Polkovnik-leytenant**
**Arif PƏNAHOV,**
**"Azərbaycan Ordusu"**

# “Məqsəd ordunun təminatını daha da yaxşılaşdırmaqdır”

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi plana əsasən, "N" hərbi hissəsində Silahlı Qüvvələrin qoşun xidməti, hərbi birlik, birləşmə və əlahiddə hərbi bölmələrinin əşya, ərzaq və yanacaq xidmətləri rəislərinin ötən ilin yekunları və 2016-cı ildə qarşıda duran vəzifələrə həsr olunmuş toplantısı keçirilib.

Toplantı iştirakçıları əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin və Vətənimizin azadlığı, suverenliyi uğrunda şəhidlik zirvəsinə ucalan soydaşlarımızın xatirəsini yad ediblər.

Arxa Cəbhə İdarəsinin rəisi polkovnik Münasib Babayev məruzə ilə çıxış edərək bildirib ki, ölkəmizdə həyata keçirilən genişmiqyaslı quruculuq işləri bütün sahələri əhatə etdiyi kimi, Silahlı Qüvvələrimizdə də uğurla davam etdirilir. "Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısı sayəsində ölkəmizin müdafiə qüdrəti daha da güclənmiş, ordu müasir silah və texnikalarla təmin edilmişdir. Silahlı Qüvvələrin şəxsi heyətinin sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində də məqsədyönlü tədbirlər həyata keçirilmiş, müasir tələblərə cavab verən hərbi şəhərciklər, əsgər yataqxanaları və digər obyektlər istifadəyə verilmişdir. Ordumuzun ərzaq, geyim, yanacaq və sürtkü materialları ilə təminatında da əsaslı dönüşə nail olunmuşdur. Bütün görülən tədbirlər nəticəsində şəxsi heyətin döyüş qabiliyyəti daha da yüksəlmiş, vətənpərvərlik hissi gücləndirilmişdir. Ötən il düşmənlə təmas xəttində baş verən hadisələr bir daha göstərdi ki, Silahlı Qüvvələrimizin döyüş qabiliyyəti qat-qat yüksəlib", - deyən idarə rəisi qeyd edib ki, əsas məqsədimiz bundan sonra da hərbi qulluqçuların sosial-məişət şəraitinin yüksək səviyyədə təşkil olunması və ordumuzun döyüş ruhunun daim yüksəldilməsidir.

**"Azərbaycan Ordusu"**



# Əfqanıstandakı sülhməramlılarımızın bir qrupu Vətənə qayıdıb

NATO-nun 2015-ci ilin yanvarından Əfqanıstan İslam Respublikasında həyata keçirdiyi yeni "Qətiyyətli Dəstək" qeyri-döyüş missiyasının tərkibində fəaliyyət göstərən Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 42 nəfərdən ibarət qrupu plana uyğun olaraq rotasiya qaydasında Bakıya qayıdıb.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Əfqanıstandakı sülhməramlı missiyası 20 noyabr 2002-ci il tarixdən başlayıb.

Hazırda Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 94 nəfərdən ibarət hərbi qulluqçusu, 2 hərbi həkimi və 2 mühəndis-istehkam ixtisası üzrə zabiti Əfqanıstandakı missiyada iştirak edir.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

## 20 Yanvar faciəsi

# Azadlıq uğrunda şəhidlik ən uca zirvədir

## Hərbi dənizçilər anım mərasimində



Hərbi Dəniz Qüvvələrinin şəxsi heyəti də 20 Yanvar hadisələrinin ildönümünü anım mərasimi ilə qeyd etdi.

Əvvəlcə ümummilli lider Heydər Əliyevin, müstəqilliyimiz və ərazi bütövlüyümüz uğrunda şəhid olan soydaşlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Yüksək rütbəli zabitlərdən Şahin Məmmədov, Natiq Bağırov və başqaları tədbirdə çıxış edərək Qanlı Yanvar hadisələrini doğuran səbəblərdən, faciənin əsl mahiyyətindən və xalqımızın qəhrəmanlıq tarixində xüsusi yer tutmasından danışdılar.

**"Azərbaycan Ordusu"**

## Mübarizə qurbanları heç zaman unudulmayacaq

***Qanlı 20 Yanvar hadisələrinin 26-cı ildönümü ölkəmizin hər yerində olduğu kimi, Şəmkir rayonunda da qeyd olundu. 20 Yanvar qırğınlarında həlak olmuş günahsız insanların xatirəsinə həsr olunmuş tədbirlər keçirildi. Rayon mərkəzində 20 Yanvar şəhidlərinin xatirəsinə ucaldılmış abidə kompleksinin önündə Kür qəsəbə mədəniyyət evinin kollektivi ədəbi-bədii kompozisiya nümayiş etdirdi.***




Çıxış edənlər bildirdilər ki, 20 Yanvar hüzn və şərəf günü olaraq xalqımızın yaddaşından heç vaxt silinməyəcək. Həmin qanlı hadisələrin cərəyan etdiyi yanvar günlərində canlarından keçmiş Azərbaycan övladları müstəqil dövlətçiliyimiz uğrunda həlak olmuşlar. Totaritar Sovet rejimi amansız cəza aktını Azərbaycanda həyata keçirsə də, xalqımızın azadlıq istəyini boğa bilmədi.

Əslində bu hadisələr göstərdi ki, müstəqillik yolunda qurban verməkdən çəkinməyən xalqımız heç vaxt haqq yolundan dönməyəcəkdir. Böyük maneələrə baxmayaraq Azərbaycan xalqı ötən yüzillikdə ikinci dəfə azadlıq və istiqlaliyyətinə qovuşdu. Müstəqil Azərbaycan dövləti beynəlxalq aləmdə tanındı. Ancaq xalqımızın azad, müstəqil dövlətə sahib olması asanlıqla başa gəlmədi. Havadarlarından dəstək alan düşmən qüvvələr torpaq iddiası ilə ölkəmizə xaincəsinə hücumlar etdilər.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra ölkəmizin həyatında əsaslı dönüş yarandı. Müstəqilliyimizə təhlükə törədən amillər aradan qaldırıldı və ölkəmiz yeni inkişaf mərhələsinə qədəm qoydu. Azərbaycanda bəşəri dəyərlərə söykənən hüquqi-demokratik dövlət yarandı. Dövlətçiliyin və müstəqilliyin dayağı sayılan Silahlı Qüvvələrimiz yaradıldı. Memarı və qurucusu dahi şəxsiyyət Heydər Əliyev olan ordumuz qısa bir vaxtda regionun qüdrətli hərbi qüvvəsinə çevrildi.

Xalqımız heç vaxt qəhrəman, igid övladlarının xatirəsini unutmur. Onlar daim böyük ehtiramla yad olunur. Hakimiyyət orqanlarının nümayəndələri, hüquq mühafizə orqanlarının əməkdaşları, hərbi qulluqçular abidə önünə qərənfillər qoyaraq bir daha şəhidlərin xatirəsini yad etdilər.

**Mübariz MUSAYEV,**
**"Azərbaycan Ordusu"**

## Müstəqillik tariximizin qan yaddaşı



***Yanvarın 19-da Təlim və Tədris Mərkəzində C.Naxçıvanski adına Hərbi Liseyin təşkilatçılığı ilə "20 Yanvar 1990-cı il - müstəqillik tariximizin qan yaddaşıdır" adlı anım mərasimi keçirlib. Tədbirdə liseyin müəllim və kursant heyəti, Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsinin, Milli İncəsənət Muzeyinin, Qeyri-Hökumət Təşkilatlarının nümayəndələri və digər qonaqlar iştirak ediblər. Əvvəlcə qonaqlar liseyin rəhbərliyi ilə birlikdə foyedə 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunan rəsm sərgisi ilə tanış olublar.***

Sonra ümummilli lider Heydər Əliyevin, 20 Yanvar şəhidlərinin və respublikamızın ərazi bütövlüyü uğrunda şəhid olan Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Dövlət himni səsləndirilib.

Anım tədbirini açıq elan edən lisey rəisinin şəxsi heyətlə iş üzrə müavini polkovnik Rəhim Səmədov 1990-cı ilin qanlı şənbə gecəsində Sovet imperiyası tərəfindən azadlığını və müstəqilliyini tələb edən xalqımızın başına gətirilən müsibətlərdən danışıb.

Yüz illər keçsə belə Vətənin öz şəhid övladlarını unutmayacağını qeyd edən polkovnik 20 Yanvarın xalqımızın hüzn və şərəf günü olduğunu, Azərbaycanda azadlığa gedən yolun Qanlı Yanvardan keçdiyini iftixar hissiylə səsləndirib.

Sonra mərasim iştirakçıları kursantların çıxışlarını dinləyiblər.

Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Sədaqət Qəhrəmanova gənc kursantlara üzünü tutaraq söyləyib ki, bu gün Azərbaycan gəncliyi Vətənin azadlığı, müstəqilliyi uğrunda Ali Baş Komandanın əmrinə hər an hazır olmalı, tarixi faciələrimizi unutmamalı və müqəddəs hərbçi peşəsinə mükəmməl yiyələnərək Vətənin müdafiəsində möhkəm dayanmalıdır.

Milli İncəsənət Muzeyinin elmi işçisi Əsəd Quliyev "20 Yanvar faciəsi rəssamların gözü ilə" mövzusunda çıxış edərək bildirdi ki, bu hadisələrə həsr olunan çoxlu sayda ədəbiyyat nümunələri yazılıb, kinofilmlər çəkilib, həmçinin bu ağrı-acılar rəssamların da yaradıcılığında süjet xəttinə çevrilib.

Anım mərasimi Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsinin əməkdaşı Fərid Ədilovun uşaq hüquqlarının qorunması haqqında təqdimatı ilə davam edib.



20 Yanvar faciəsinə həsr olunan videoçarx - "Mənim Qanlı Yanvarım" adlı ədəbi-bədii kompozisiya təqdim olunub.

Sonda Vətəndaşların Sosial Rifahının Gücləndirilməsinə Dəstək İctimai Birliyinin maliyyələşdirdiyi və Venera Əsgərovanın ssenari müəllifi olduğu "Ölümə qənşər" filmi nümayiş olunub.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**N.PƏNAHOVUNDUR**

Vətənimizin azadlığı və suverenliyi uğrunda şəhid olanlarımızın xatirəsini dərin hörmət və ehtiramla yad edirik. O gün yaddaşımda uşaqlıqda yaşadığım, mənəviyyatımı dərindən yaralayan və məndə acı təəssüratlar yaradan gün kimi qalıb. Məktəbdən qayıdanda yolumuza çıxan tankların qulaq batıran səsləri, bu səslərin içindən dikələn ana fəryadını, bacı naləsini heç zaman unutmaram. 26 il keçməsinə baxmayaraq, nifrətimi, hiddətimi sözlə ifadə edə bilmirəm. 9 yaşlı uşağın dərk etdiyi səviyyədə 20 yanvarda Bakıda, 25 yanvarda anadan olduğum doğma rayonum Neftçalada qırğın törədən tanklar yanımdan ötüb keçəndə qaçıb gizlənmədiyimi, yerdən götürdüyüm bir parça daşı əlimdə bərk-bərk sıxdığımı yaxşı xatırlayıram. Tankın üstündəki yad əsgərlərin mənasız sifət cizgiləri bir kabus kimi yaddaşımdan silinmir. Çəkinmədən onların gözlərinin içinə baxmışdım. Heç zaman unutmayacağım buz kimi soyuq baxışlarla qarşılaşanda nədənsə mənə elə gəlmişdi ki, onlar qaniçəndirlər. Hər dəfə tarix dərsində müəllimimiz 20 Yanvar hadisələri haqqında məlumat verəndə, həmin o qatilləri, baxışları buz kəsən muzdlu əsgərləri xatırlamışdım...

26 ildir ki, bəşəriyyət və insanlıq əleyhinə törədilmiş dəhşətli cinayətlər düşüncəmdən silinmir. 20 Yanvar hadisələrində Azərbaycanın müstəqilliyi uğrunda mübarizədə şəhid olanlardan üç nəfəri neftçalalıdır. Neftçalalılar daim fəxr edirlər ki, 1990-cı ilin yanvar hadisələri zamanı yüksək vətəndaşlıq, mərdlik və hünər nümunələri göstərənlər arasında onların da həmyerliləri olub. Azərbaycanın istiqlaliyyəti uğrunda yaralanmış həmyerlilərimizi heç zaman unutmuram. Qanlı Yanvar hadisələri zamanı Netçalada 30 nəfər soydaşımız həbs olunub. Fiziki, psixoloji, maddi və mənəvi ziyan çəkənlərin sayı isə daha çoxdur. Onlardan bir çoxuna "Azadlıq uğrunda mübariz" fəxri adı verilib. Uşaq xatirələrimlə yada saldığım o günlərin dəhşətli hadisələrinin canlı şahidləri ilə söhbətləşməyi bu gün də özümə mənəvi borc bilirəm.

## 20 Yanvar şahidlərin dili ilə...



İlk həmsöhbətim 20 Yanvar Cəmiyyəti Neftçala rayon təşkilatının sədri, 20 Yanvar əlili Fərman Hüseynovdur.

- Fərman müəllim, o günləri necə xatırlayırsız?

- Bakıda 1990-cı ilin Yanvar qırğınından sonra Neftçalada cana doymuş adamların etiraz səsləri daha ucadan səslənməyə başladı, - deyə müsahibim o qanlı-qadalı günləri xatırladır. - Onda rayondakı mərkəzi qərargahımız indiki Şəhidlər xiyabanının yerindəydi. Qərargahın qarşısına hər gün minlərlə adam yığışır, bu qanlı cinayəti törədənlərin cəzalandırılmasını tələb edirdi. Yanvarın 25-də soyuq sazaq adamı qılınc kimi kəsirdi. Mədəniyyət sarayının qarşısındakı Azadlıq meydanında qurulmuş matəm çadırı sübh açılandan gecə yarısına kimi adamla dolu olurdu. Sərhəd dəstəsi komandirinin Qaz-69 markalı avtomobilinin qərargahın qarşısında dayanmasına heç kim ciddi əhəmiyyət vermədi. Həmişə gələn adamlar idi. Podpolkovnik Raspopinlə bir kapitan da gəlmişdi. Amma bu gün onların gəlişinin məqsədi başqa idi. Hərbi hissəyə xəbər vermişdilər ki, guya bizimkilərdə silah və hərbi sursat var. Bu ağ yalan idi. Həyətdə adamlar getdikcə çoxalırdı. Onların əksəriyyəti şəhidlərin yas məclisindən çıxanlar idi. Bu vaxt qərargaha Böyük Oryad kəndi tərəfdən üstüörtülü üç yük maşını yanaşdı. Hərbi maşınlar idi. Avtomobildən düşən silahlı əsgərlər döyüş vəziyyəti aldılar. Bu zaman ilk atəş açıldı. Çaşbaş qalan adamlar küçə boyu qaçmağa, dalda yerlərdə gizlənməyə çalışdılar. Əbülfəz Cəfərovu, Novruz Dadaşovu və məni elə qapının ağzında vurdular. Ələkbər Talıbov da yaralanmışdı.

Fərman müəllimin baxışları uzaqlara dikilir, yumruqları düyünlənir. Bu vaxt cəmiyyətin sədr müavini, "Azadlıq uğrunda mübariz" fəxri adı almış Ramiz Hüseynov söhbətimizə qoşulur:

- Küçədə qarışıqlıq, səs-küy başlananda içəridəkilərin narahatlığı artdı. Qapı ağzında dayanmış Əli Əsgərli vəziyyəti öyrənmək üçün dəhlizə çıxdı, dəhşətli bir mənzərə ilə qarşılaşdı. Əsgərlər hara gəldi atəş açırdılar. Onların iri, dolu bədənli olduğunu görcək bunların xüsusi təyinatlı qoşun növündən olduğunu bildik. Nurəddin Ağahüseynov özünün "Zaporojets" markalı avtomobilində evinə gedərkən güllələr maşını dəlik-deşik edib onun başını dağıtmışdı. O, sükanın üstünə yıxılıb qalmışdı.

Əbülfəz Cəfərov Bankə qəsəbəsində yaşayırdı, nişanlı idi. Yanvarın 26-da atası onun meyitini Bakıdakı xəstəxananın meyitxanasından taparkən nişan üzüyü barmaqla bir yerdə yox imiş. Şəmsəddin Orucov da yanvarın 20-də Bakıda öz evində, anasının və ailəsinin gözləri önündə güllələrə tuş gəlmişdi.

Etibar Cavadov da 1990-cı ilin 25-26 yanvar faciəsi zamanı zərər çəkmişlərdəndir. O həmin günün ağrı-acısını ömrü boyu unutmayacağını dönə-dönə vurğulayır:

- Küçə bir anın içində tamamilə boşalmışdı. Ancaq əsgərlər xeyli adamı mühasirəyə alıb saxlamışdılar. Adamlar avtomat zərbələrindən kökündən qopmuş ağac kimi yerə yıxılırdılar. Ələ keçənləri qolları bağlı vəziyyətdə maşında bir-birinin üstünə qalaqlanmış halda Bankə qəsəbəsinə aparırdılar. Sonralar tutulanların saxlanıldığı binaya camaat "Cəhənnəm hamamı" adı verdi.

Xatirələr qədər insanları bir-birinə heç nə bağlaya bilməz. Çünki xatirələr keçmişin həqiqətləridir. 20 Yanvar Cəmiyyətinin nümayəndəsi Ələkbər Zahidov hadisələrlə bağlı söhbətimizə davam edərək bildirdi ki, burada, sözün əsl mənasında, bizi cəhənnəm gözləyirdi. Yaralılardan axan qan hamamın daş döşəməsində gölməçələr əmələ gətirmişdi.

20 Yanvar qırğınında zərərçəkmiş həkim Əhmədağa Vəliyev xəstə yanından qayıdarkən yolda tutulmuşdu. Həkim yaralılara təcili yardım edilməsini hiss edərək onların köməyinə tələsirmiş. Həkim görüşümüz zamanı dedi ki, Novruzun qolunu güllə iki yerə parçalamışdı. Ələkbərin gözü, başı qan içində idi. Abhüseynin dodağı parçalanmış, qabırğası sınmış, Əbülfəz isə artıq keçinmişdi.

"Azadlıq uğrunda mübariz" Novruz Dadaşov da həmin günlərlə əlaqədar xatirələrini bölüşür. O deyir ki, tutulanları Bakıya apararkən qanlı cinayətin izini itirmək üçün bir neçə nəfəri təyyarədən dənizə atmaq istəyirdilər. Lakin gürcü əsilli pilot buna qəti etirazını bildirir...

Acı xatirələri dinlədikcə qeyri-ixtiyari yenə də barmaqlarım ovuclarımda kilidlənir, ürəyim şiddətlə döyünür və düşünürəm ki, bu faciələr milli qürurumuzu qırmadı. Bu gün bizi bir millət kimi var edən məhz müstəqilliyimiz uğrunda son damla qanımıza kimi mübarizəmiz oldu!

**Leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

***20 Yanvar faciəsindən 26 il keçir. Neçə 26 illər də keçəcək, 19 yanvar gecəsinin dəhşətləri unudulmayacaq. Tarix o gecənin mahiyyətini yaxşı bilir. O gecə azadlığa, müstəqilliyə ad olan gecəydi. O gecə imperiya Azərbaycanda azadlıq məfkurəsini qanla boğmaq istəyirdi. Buna qadir olmayacağını bilsə də, adi şənbə gecəsini qanlı şənbəyə döndərdi, özünə ölüm hökmü yazdı...***

## 1991-ci ilin 20 Yanvar günü

İmperiyanın əsarət, ilhaq zənciri qırıldı həmin gecə. Həmin gecə müstəqillik manifestinin başlanğıcı oldu...

Əsrin əvvəllərinə kimi Çəmbərəkənd qəbiristanlığı olan ərazi Şəhidlər xiyabanına çevrildi; tarixə göz dağı kimi.

1991-ci il 20 Yanvar faciəsinin ildönümüydü...

Minlər, milyonlar gələcəkdi Şəhidlər xiyabanına ziyarətə. Azərbaycan televiziyası xalqın şəhidlərə, şəhidliyə münasibətini dünyaya canlı yayımla çatdıracaqdı.

Aparıcılardan biri jurnalist Telman Nəzərli idi. Həmin günü belə xatırlayır:

- Ədəbi-dram verilişləri baş redaksiyasında işləyirdim. Yanvarın 19-da mənə dedilər ki, səni sədrin müavini Nahid Hacıyev axtarır. Getdim. Qayğılıydı, bir qədər də düşüncəliydi. Davamlı baxışlarla məni süzdü. Gec-dən-gec "Mirzə" - dedi, "sabah Şəhidlər xiybanında canlı yayımdı. Aparıcılardan biri sən olacaqsan. Mənim zəmanətimlə". Tutuldum. Düzü, belə bir təklifi gözləmirdim. Böyük məsuliyyət idi. Belə bir müqəddəs yerdən canlı yayımın aparıcısı olmaq məni vahimələndirirdi. Səhər saat səkkizdən axşam saat səkkizə kimi nələrdən danışacaqdım? İnformasiyalarım kifayət edəcəkdimi? Danışacaqlarım 19 yanvar gecəsinin mahiyyətini açmağa yetərli olacaqdımı?

Məni düşüncələrin sıxılcımından Nahid müəllim qurtardı...

Hiss edirdim ki, qəlbim şəhidliklə, Şəhidlər xiyabanıyla döyünür. Mənə elə gəlirdi ki, bu döyüntüləri bütün dünya eşidir.

Mətn olmayacaqdı. Nahid müəllim belə də dedi:

- Mətn yoxdu. Olmayacaq. Jurnalist kimi də, şair kimi də sinən doludu. Öhdəsindən gələrsən. Bacaracaqsan. Sənə inanıram, inanırıq...

Səhər saat səkkizin yarısında Şəhidlər xiyabanındaydım. Öyrəndim ki, digər aparıcılar - Mehriban Vəzir və Tofiq Abbasov da buradadı. Qeydlərimlə maraqlandılar.

- Qeydlərim yoxdu, - dedim. - Bildiklərimdən, düşündüklərimdən danışacam. Bura qeydlərlə gəlməyi şəhidlərimizin uca ruhuna yaraşdırmadım.

Canlı yayımın rejissoru Nazim Abbas söhbətə müdaxilə elədi:



- Rəhbərlik belə məsləhət görüb. Telman necə, nələr danışacaq, özü bilər.

Etimad, təbii ki, məsuliyyətimi artırırdı. 19 yanvar gecəsinin şahidi olmuş jurnalist üçün nəsə danışmaq o qədər də çətin olmazdı. Məhz o nələri məntiqlə, dünənlə-sabahla əlaqələndirməklə danışılmalıydı. Buna nail olacağıma inanırdım.

Möhtəşəm canlı yayım başlayanda onsuz da axşamdan bəri məni üzən həyəcan daha da artmışdı. Şəhidlər xiyabanına gələnləri görüncə, sözün əsl mənasında, nə deyəcəyimi bilmirdim...

Bir neçə çıxışdan sonra, necə deyərlər, dilimin düyünü açıldı. Aparıcı həmkarlarım da aparıcılığımı bəyənmişdilər deyəsən. Az sonra Nahid müəllimdən xəbər gəldi ki, belə də davam elə. Öhdəsindən gəlirsən. Ümumən hadisələrə bədii biçim verə bilirsən.

Bunlar mənə əlavə güc verdi elə bil, düşüncələrimi əməlli-başlı durultdu.

Ana fəryadıyla, bacı naləsiylə, hər şey deyən sükutla, fon kimi təqdim edilən muğamlarımızla vəhdətdə aparıcının dedikləri cılız görünməməliydi. Bunu bütün dünyanın gördüyünü, dinlədiyini də nəzərə almalıydıq. Xalqın azadlıq, müstəqillik mücadiləsi ildönümdə canlı yayımın "mübtədasıydı" və biz bunu çatdıra bildik...

Axşam televiziyaya qayıdanda rəhbərlik təşəkkürünü bildirdi. Nahid müəllimin "Səni göndərməkdə yanılmamışam" kəlmələrini unuda bilərəmmi? Nahid müəllim canlı yayımda dediyim ilk kəlmələri də xatırlatdı: "Bu gün Borçalının da, Dərbəndin də, Təbrizin də qəlbi bu müqəddəs məkanda, Şəhidlər xiyabanında döyünür..."...

...O qanlı şənbə gecəsindən 26 il keçir. Nə qədər biz varıq, hər il yanvarıın 20-si günü canlı yayım olacaq. Şəhidlər mənəviyyat zirvəsidi axı...

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

## Təsadüfən sağ qaldıq...

1990-cı ildə 20 Yanvar hadisələri baş verən axşam Montin adlanan qəsəbədə yaşayan qohumlarımgilə getmişdik. Dəqiq yadımdadır, 19-dan 20-nə keçən gecə, Montin parkı ətrafında, bir minik maşınında, səsucaldanla çağırışlar səslənirdi. Hamı çaşıb qalmışdı. Biz elə düşündük ki, kiməsə kömək lazımdır. Nə baş verdiyini anlaya bilmirdik. Qonşularla birgə eyvana çıxmışdıq. Bu çağırışdan yarım saat keçməmiş göydə par-par parlayan işıqlı güllələrin bir-birinin ardınca havada uçduğunu gördük. Atışma səsi çox aydın eşidilirdi. Əvvəlcə güllələri fişəng zənn etmişdim, həm də çox yaxın məsafədən görürdüm. Sonradan o vaxta kimi hiss etmədiyim qoxu ətrafı bürüdü. Evdə oturmaq çox qorxulu idi. Binamızda, az da olsa, hərbçi ailələri də yaşayırdılar. Hamımıza evlərin işığını söndürməyi və hələlik otaqlarda yox, arakəsmədə, yəni dəhlizdə, yaxud, vanna otağında yerləşməyi məsləhət gördülər. Səhərədək arakəsmədə qaldıq...

Bayırda camaat və maşınlar çox az gözə dəyirdi. Atamgilə çathaçatda, Komsomolsk adlanan dairədə uzaqdan iki BTR göründü. Ərazidən bir az uzaqlaşmışdıq ki, elə bil qulağımızın dibində mərmi partladı. Atəşin zərbindən maşının neçə silkələndiyini heç vaxt yadımdan çıxarmaram. Atam idarə etdiyi "UAZ"-ı həddən artıq dar, təhlükəli və kələ-kötür yollara yönəltdi. Mən dəhşət içində atama baxırdım. Vaxtilə Sovet ordusunda, artilleriyaçı kimi xidmət edən atam soyuqqanlı idi və heç nə danışmırdı... Sonradan güllələrin maşınımızın üzərindən uçduğunu öyrəndim... Xoş bir təsadüf nəticəsində sağ qaldıq.

**Mayisə ƏSƏDULLAQIZI**

*Nəsillərə örnək*

# Əfsanəvi qəhrəman Həzi Aslanovun xatirəsi anılıb

***Yanvarın 22-də Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində C.Naxçıvanski adına Hərbi Liseyin təşkilatçılığı ilə iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları qvardiya general-mayoru Həzi Aslanovun xatirəsinə həsr olunan tədbir keçirilib. Əvvəlcə sərkərdənin abidəsi ziyarət olunub və qarşısına tər qərənfillər düzülüb.***



Tədbiri açıq elan edən lisey rəisinin şəxsi heyətlə iş üzrə müavini polkovnik Rəhim Səmədov müəllim və kursant heyətini ulu öndər Heydər Əliyevin, görkəmli hərb xadimi Həzi Aslanovun, müstəqilliyimiz və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda edən şəhidlərimizin xatirəsini bir dəqiqəlik sükutla yad etməyə dəvət edib. Dövlət himni səsləndirilib.

Polkovnik Azərbaycanın hərb tarixinə adı qızıl hərflərlə həkk olunan generalın şərəfli həyat və döyüş yolundan danışaraq qeyd edib ki, xalqımızın sərkərdə oğlunun qəhrəman obrazı heç zaman yaddaşlardan silinməyəcək. "Əbədi qəhrəmanlıq tarixi yazan Həzi Aslanovun şərəfli döyüş yolu hamımıza örnəkdir. Bu ad ölməzdir. Tarix bu adı Vətənə sədaqətli xidmət nümunəsi kimi əbədi yaşadacaqdır. Qoy, Azərbaycan gəncləri sərkərdələrimizin, ata-babalarımızın şərəfli ömür yolundan daim nümunə götürsünlər".

Vətənimizin belə qəhrəman oğulları barədə bir jurnalist-tədqiqatçı olaraq söz açmaq mənim üçün qürurvericidir.

Baş Qərargahın 3-cü Belarusiya cəbhəsindəki nümayəndəsi marşal Vasilevski Ali Baş Komandana məruzə edərkən, həmyerlimizin tankçılarının Vileyka şəhərinin faşistlərdən azad olunmasında göstərdikləri igidliyi xüsusi qeyd edərək demişdi:

"H.Aslanovun 35-ci tank briqadası yüksək hərb sənəti nümayiş etdirərək Minsk şəhərinin azad edilməsində əsas rol oynamışdır".

İki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Əhəd oğlu Aslanov yüzlərlə Vətən oğlu kimi faşizmlə mübarizədə qəhrəmanlıq göstərmişdi. O, 1910-cu il yanvarın 22-də Lənkəran şəhərində anadan olmuşdur. 1924-cü ildə Zaqafqaziya hərbi məktəbindən başlanan Həzinin ömür yolu neçə-neçə hərbçi taleyinə işıq salmışdır. Hərbi təşkilatçılıq bacarığına, yüksək hərbi peşəkarlığa malik sərkərdə özündən sonra Həzi Aslanov örnəyi qoyub getmişdir. Bu gün müstəqil Azərbaycan Ordusunda xidmət edən hər bir zabit bu əfsanəvi qəhrəmanın şərəfli ömür yolundan dərs almağa, döyüş nümunələrindən xəbərdar olmağa borcludur. Stalinqrad vuruşmalarında cinahlardan zərbə ustası kimi şöhrət qazanan Həzi Aslanov özünü hərb elminin zirvəsinə yiyələnmiş mahir bir komandir kimi göstərdi.



Stalinqrad döyüşləri zamanı "Krasnaya Zvezda" qəzetinin baş məqalələrinin birində qeyd olunurdu ki, tank hissəsi komandiri Həzi Aslanovun keçirdiyi əməliyyatlar uzun müddət tədqiq edilməyə və öyrənilməyə layiqdir.

General özü hərb elmində qazandığı təcrübəsinə əsaslanaraq deyirdi ki, üzbəüz həmlə nə qədər cəzbedici görünsə də, mən həmişə üstünlüyü düşmənin cinahlarına zərbə endirməyə verirəm. Düşmənlərin cinahlarını axtarmaq, ona ən zəif yerlərindən zərbə vurmaq asan deyildi. Bunun üçün hər bir komandirdən böyük zirəklik və məntiqlik tələb olunur.





35-ci qvardiya tank briqadası tibb sanitar hissəsinin rəisi G.R.Beqiaşvili öz xatirələrində yazırdı: "Yadımdadır, bir dəfə cəbhə qərargahında yaşlı bir general gənc mayora deyirdi, müharibə qurtarandan sonra Aslanovun apardığı döyüşlər hərbi dərsliklərə, müntəxabatlara daxil ediləcək".

Sovet İttifaqı marşalı A.İ.Yermeyenko isə belə yazırdı: "Həzi Aslanov kimi oğul yetirdiyinə görə Azərbaycan xalqına eşq olsun".

Bu gün adı qərinələr dolaşan görkəmli sərkərdəmizin Şəhidlər xiyabanında ucalan möhtəşəm abidəsi Azərbaycan gəncliyi üçün müqəddəs ziyarətgah və qəhrəmanlıq ocağıdır.

Sonda sərkərdənin həyat və döyüş yolundan bəhs edən "Mən sizi dünyalar qədər sevirdim" bədii filmi nümayiş olunub.

* * *

Yanvarın 22-də iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları qvardiya general-mayoru Həzi Aslanovun anadan olmasının 106-cı ildönümü münasibəti ilə Lənkəran qarnizonu zabitlər evi və Həzi Aslanovun ev muzeyinin birgə təşəbbüsü ilə tədbir keçirilib.

Tədbirdə hərbi hissələrin əsgərləri, məktəblilər və şəhər ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Əsgərlərə qəhrəmanın uşaqlıq, gənclik illəri və keçdiyi döyüş yolu, göstərdiyi qəhrəmanlıqlar haqqında geniş məlumat verilib. Məktəblilərin iştirakı ilə hazırlanmış kompozisiyada qəhrəmana həsr edilmiş şeirlər səsləndirilib, xatirələr söylənilib.

Muzeyin direktoru Tamara Fətullayeva və muzeyin əməkdaşları qəhrəmanın general Mehmandarovla görüşü haqqında əsgərlərə məlumat verib, onları maraqlandıran sualları cavablandırıblar.

Sonda əsgərlər Həzi Aslanovun uşaqlıq illərinin yadigarı olan "İnnab" ağacının qarşısında xatirə şəkilləri çəkdiriblər.

* * *

İki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları qvardiya general-mayoru Həzi Əhəd oğlu Aslanovun anadan olmasının 106 illiyi münasibəti ilə Azərbaycan Hərb Tarixi Muzeyində tədbir keçirilib.

Azərbaycan xalqının qəhrəman oğlu, Böyük Vətən müharibəsinin əfsanəvi qəhrəmanlarından biri olan H.Aslanovun igidliklə dolu həyat və döyüş yolu Vətəninin azadlığı uğrunda vuruşan hər bir vətəndaş üçün nümunədir.

Müharibənin ilk günlərindən od-alov içərisinə atılan qəhrəman həmyerlimiz komandanlıq etdiyi tank briqadası ilə birlikdə neçə-neçə şəhərin faşizmdən azad olunmasında fəal iştirak etmiş, orden və medallara layiq görülmüşdür.

Tədbirdə çıxış edən muzeyin rəisi ehtiyatda olan polkovnik Əzizağa Qənizadə H.Aslanovun keçdiyi şərəfli döyüş yolundan danışmış, onun Sovet ordusunda göstərdiyi yüksək əsgəri rəşadətdən bəhs etmişdir.

Sonda tədbir iştirakçıları muzeyin 1939-45-ci illər zalında yerləşən eksponatlarla tanış olmuşlar.

**Azərbaycan Ordusu"**

*Ordu və cəmiyyət*

# Qısa vaxtda qazanılan uğurlar qürur doğurur

***Ömrümün ahıl çağlarını yaşayıram, necə deyərlər, dünyanın hər üzünü görmüşəm. Mənə elə gəlir ki, azad yaşamaqdan böyük səadət ola bilməz. Sovetlər dövründə yaşamışam, o vaxtkı orduda əsgəri xidmət keçmişəm. Amma hər zaman Sovet zabitləri arasında öz millətimizin nümayəndələrinə rast gəlməyəndə, məni ikrah hissi bürüyürdü. Doğrudan da, o vaxt milli respublikaların gəncləri arasında zabit peşələrini seçənlər çox az idi...***

Ötən əsrin 70-ci illərini yaxşı xatırlayıram, onda ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərliyinin ilk dövrü idi. Təcrübəli dövlət xadimi bütün sahələrdə, həmçinin gənc nəslin vətənpərvərlik tərbiyəsi sahəsində islahatlara başlamışdı. Bir gün eşitdim ki, Bakıda ilk ibtidai hərbi məktəb - indiki Cəmşid Naxçıvanski adına Hərbi Lisey yaradılır. Çox sevindim ki, bu məktəbin yaradılması yeniyetmələrin hərbi sahəyə marağını artıracaq. Doğrudan da, yüzlərlə azərbaycanlı övladı buraya daxil oldu və ilk məzunlar kimi onları bugünkü generallarımız, hərbi xadimlərimiz arasında görmək olduqca qürur doğurur. Bəzən düşünürəm ki, ulu öndərimiz həmin təhsil ocağını yaratmaqla haçansa Azərbaycanın müstəqil olacağını bilirmiş.

Mən bu gün ictimaiyyət nümayəndələri ilə birgə bayramlarda, əlamətdar tarixi günlərdə, tez-tez hərbi hissələrdə keçirilən tədbirlərdə iştirak edirəm. Doğma ordumuzun gündən-günə inkişaf etdiyini gördükcə, qəlbim fərəhdən döyünür. Həqiqətən, qısa müddətdə Azərbaycan Ordusu böyük uğurlara imza atıb. Bu gün bizim ordu dünyanın qabaqcıl orduları ilə bir sırada dayanır, bu olduqca qürurvericidir. Silahlı Qüvvələrimizin hərbi potensialının daha da artırılması hazırda Azərbaycan dövlətinin siyasətində başlıca yer tutur. Ölkə başçısı, Ali Baş Komandan İlham Əliyev dəfələrlə bəyan edib ki, işğalda qalan əzəli torpaqlarımız azad edilməyincə, Azərbaycan hərbi gücünü artırmaqda israrlı olacaqdır. Məhz buna görə də biz öz ordumuzu gücləndirməyə və ərazilərimizi son qarışına kimi işğaldan azad etməyə hazırıq.



Müasir dövrdə orduda xidmət edən gənclərimizin yüksək döyüş əhval-ruhiyyəsi inanmağa əsas verir ki, Azərbaycan Silahlı Qüvvələri düşmən üzərində qələbəmizi təmin etməyə tam qadirdir. Yuxarıda qeyd etdiyim kimi, dövlətimiz bu məqsədlə bütün tədbirlərə əl atır, düşünülmüş siyasət yürüdür. Əvvəlki dövrlərlə müqayisədə hazırda hərbçilərin sosial qayğılarının həll edilməsi istiqamətində inamlı addımlar atılır. Ötən il Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı ərəfəsində 500 nəfər hərbçi ailəsinin dövlət hesabına daimi mənzillə təmin edilməsini eşidəndə çox sevindim. Bundan əlavə mətbuatdan, televiziya kanallarından tez-tez xəbər tuturam ki, bölgələrdə xidmət edən zabit və gizirlərin sosial şəraitlərini yaxşılaşdırmaq üçün müasir hərbi şəhərciklər inşa olunur, hərbçi ailələri rahat şəraitlərdə yaşayırlar.

Həmçinin döyüşçülərin müasir məişət şəraiti ilə təmin edilməsi üçün yeni yataqxanalar tikilir, əsgər yeməkxanaları, hamam-camaşırxanalar istifadəyə verilir. Bir məsələni qeyd edim ki, insan özünə diqqət və qayğı görəndə əhval-ruhiyyəsi daha da yüksəlir, göstərilən etimadı doğrultmağa çalışır. Neçə bayramdır ki, Müdafiə Nazirliyinin rəhbərliyini səngərlərdə, əsgərlərlə bir yerdə görürəm. Bu amil orduda yüksək əhval-ruhiyyənin yaranmasında az əhəmiyyət kəsb etmir. Əsgər, zabit görəndə ki, Müdafiə naziri bayram gününü isti evində, ailəsinin yanında deyil, cəbhə xəttində keçirir, bu döyüşçüyə xoş ovqat aşılayır. Bu zaman əsgərin özünə də inamı artır, qələbə əzmi ilə yaşayır. İnanıram ki, belə yüksək əhval-ruhiyyədə olan doğma ordumuz üzərinə düşən hər tapşırığın öhdəsindən bacarıqla gələcəkdir.

**Fazil MƏMMƏDOV,**
**Pirallahı rayon Ağsaqqallar Şurasının sədri**

# İdman

## Güləş üzrə yığmalarımız təlim-məşq toplanışlarını davam etdirirlər



Güləş üzrə Azərbaycan yığma komandaları təqvim planında nəzərdə tutulan qrafik üzrə qarşıdan gələn yarışlara hazırlıqları davam etdirirlər.

Yunan-Roma və sərbəst güləş üzrə böyüklərdən ibarət yığma komandalar qarşıdan gələn Avropa çempionatına və beynəlxalq yarışlara hazırlıq planı üzrə məşqlərini Olimpiya Güləş Mərkəzində davam etdirirlər.

Yunan-Roma güləşi üzrə yığma komandanın üzvləri yanvarın 18-dən təlim-məşq toplanışına başlayıb. Hazırlıq yanvarın 27-dək davam edəcək. Yığma komandanın 27 üzvü məşqlərdə iştirak edir. Təlim-məşq toplanışının ardından pəhləvanlarımızın İstanbulda keçiriləcək Vehbi Emrenin xatirəsinə həsr olunmuş ənənəvi beynəlxalq turnirdə iştirakı gözlənilir.

## Azərbaycan atleti Litvada bürünc medal qazanıb



Litvanın Kuldiqa şəhərində atletika üzrə "Kristinas Cup-2016" beynəlxalq turnirində idmançımız Rahib Məmmədov bürünc medala sahib olub. Turnirdə 300 idmançı birincilik uğrunda mübarizə aparıb. Böyük Britaniya, Danimarka və digər Avropa ölkələrindən atletlərin mübarizə apardığı yarışda Rahib Məmmədov 60 metr məsafəyə sədlərlə qaçışda fərqlənib. Qızıl və gümüş medala Böyük Britaniya və Litvanı təmsil edən atletlər layiq görülüb.

## Bakının “Azəryol” voleybol klubu Polşada “Muşina”nın qonağı olacaq

Bu gün Bakının qadınlardan ibarət "Azəryol" klubu Avropa Voleybol Konfederasiyası (CEV) kuboku yarışlarının dörddəbir final mərhələsində ilk oyunu keçirəcək. Bakı təmsilçisi Polşada "Muşina" komandasının qonağı olacaq. Görüşü rusiyalı baş hakim Aleksandr Pavlov idarə edəcək. Ona danimarkalı həmkarı Enqborq Morten Klein kömək edəcək. Komandalar arasında cavab oyunu yanvarın 27-də Azərbaycan Voleybol Mərkəzində təşkil olunacaq.

## Ağdamın “Qarabağ” komandası Macarıstan klubuna böyük hesabla qalib gəlib

Antalyada təlim-məşq toplanışında olan Ağdamın "Qarabağ" futbol klubu hazırlıq prosesi çərçivəsində ikinci yoxlama oyununa çıxıb. Baş məşqçi Qurban Qurbanovun komandası Macarıstanın "Dioşdyor" klubu ilə qarşılaşıb. Matç Ağdam təmsilçisinin 4:0 hesablı qələbəsi ilə yekunlaşıb. "Qarabağ"ın heyətində Maksim Medvedev, Muarem Muarem, Rahid Əmirquliyev və Mahir Mədətov fərqləniblər.

Qeyd edək ki, "Qarabağ" Antalyada ilk yoxlama oyununda Almaniyanın "Rot Vayss Essen" klubuna 1:0 hesabı ilə qalib gəlmişdi.

**AZƏRTAC-ın materialları əsasında**

*Redaksiyanın poçtundan*

# “Əsgərlərimizin şəraitini, müasir silahları gördük”

***Redaksiyamıza göndərilən məktublarda ordumuza böyük inam görürük. Bu inam ordu ilə xalqın birliyinin təcəssümüdür.***



***Mirzağa Fərmanov:***

- Ailəmlə birlikdə oğlumun bayramlarını təbrik etmək, onunla sevincimizi bölüşmək üçün Şirvan şəhərindən gəlmişik. Oğlum Nəriman rabitə bölməsində xidmət edir, telefonçudur. Artıq bir ildir şanlı Azərbaycan Ordusunda qulluq edir. Nümunəvi əsgərlərdən biridir, komandirləri də onun xidmətindən razıdırlar. Hətta hərbi hissə komandanlığı nümunəvi xidmətinə görə evimizə təşəkkür məktubu da göndərib. Bu bizi çox sevindirdi.

Vətənə xidmət etmək hər bir kişinin işidir. İmranı hərbi xidmətə yola salanda da bu sözləri öyüd kimi ona demişdim. Çox sağ olsun ki, layiqincə xidmət edir, təlimlərdə fərqlənir.

Biz əvvəllər də bura gəlmişik. Mən qürur hissi keçirirəm ki, bu gün bizim belə səliqəli, intizamlı hərbi hissələrimiz, bacarıqlı zabitlərimiz, hazırlıqlı ordumuz var. Əsgərlərin şəraiti çox yaxşıdır. Sağ olsun Müdafiə naziri general-polkovnik Zakir Həsənovu. Onun göstərişi ilə orduda "Açıq qapı" günləri keçirilir. Mən bu tədbirdə ikinci dəfə iştirak edirəm. Hərbi hissə ilə ətraflı tanış olmuşuq. Əsgərlər üçün yaradılan şəraitdən tam razıyıq.



***Aliyə Jeltova:***

- Bakıdan, Qaradağ rayonunun Sahil qəsəbəsindən gəlmişəm. Xəbər tutduq ki, bayram günündə Silahlı Qüvvələrdə "Açıq qapı" günü keçiriləcək. Xalqımız həmin gün Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü və Yeni il bayramını qeyd edirdi. Ona görə bu hərbi hissədə xidmət edən oğlum Oleqə baş çəkmək, onun bayramlarını təbrik etmək üçün gəldim.

Əvvəl də burada olmuşdum. Amma bu dəfə hərbi hissəni daha yaxından tanıdım. Təəssüratlarım çox yüksəkdir. Əsgərlərin şəraitini, müasir silahları gördük. Hətta yeməkxanaya gedib əsgər yeməyindən - küftə və plovdan da daddıq. Qadın aşpazlar hərbçilər üçün dadlı Azərbaycan yeməkləri bişirirlər.

Bir sözlə, Vətənə övladlıq borcunu verən övladlarımız üçün çox yaxşı şərait yaradılıb. Əvvəllər narahat olsam da, indi arxayınam ki, oğlumun xidməti də, məişət şəraiti də yüksək səviyyədədir. Oleq artıq altı aydır ki, xidmət edir, zenitçi ixtisasına yiyələnib. Nizam-intizamlı olduğuna görə komandirləri oğlum barədə xoş sözlər söylədilər.



***Dönməz Hacıyev:***

- Göyçay şəhərindən ailəliklə oğlum Turanın bayram tədbirlərində iştirak etmək üçün gəlmişik. Oğlum artıq altı aydır ki, bu hərbi hissədə Vətənimiz Azərbaycana öz övladlıq borcunu verir. Hərbi xidmətə onu yola salanda ləyaqətlə qulluq etməyi tövsiyə etmişdim.

Açığı, bir valideyn kimi bizi oğlumuzun xidmət etdiyi hərbi hissədə olan vəziyyət, nizam-intizam, əsgərlərin məişət şəraiti çox maraqlandırırdı.

"Açıq qapı" günü hərbi hissədə şahidi olduğumuz hadisələr ürəyimizdən oldu. Hər şey burada çox gözəl, çox layiqlidir. Əsgərlərin şəraiti ürəkaçandır. Bir valideyn kimi gördüklərimizdən çox razıyıq.

Hərbi hissədə "Açıq qapı" gününə, bayram tədbirinə yaxşı hazırlaşmışdılar. Xüsusilə kəşfiyyatçıların göstərdiyi səhnəciklər bizi heyrətləndirdi.

Bu gün müdrik rəhbərliyimiz var, dövlət başçısı ordumuza böyük qayğı göstərir. Güclü Silahlı Qüvvələrimiz var. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun fəaliyyətini çox yüksək dəyərləndirirəm. Haçan baxırsan, görürsən ki, ya təlimlərdədir, ya da təzə hərbi hissələrin açılışında iştirak edir. Ona görə ordumuzla fəxr edirəm!

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
mayor
Vahid MƏHƏRRƏMOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 71
Nüsxə 4700